Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 92-100**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 92-100**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 92-100**

UOT:784.96

Günay Hafiz qızı Tağıyeva
müəllim
Gəncə Dövlət Universiteti
AZ 2001, Gəncə ş., Heydər Əliyev pr. 429
E-mail: gunay.tagiyeva.76@mail.ru

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ UŞAQ XORU İLƏ İŞİN ƏSAS CƏHƏTLƏRİ

Açar sözlər: *şagird, xor, xormeyster, kollektiv, estetik tərbiyə, intellekt, treninq, nəzəriyyə*

Məqalədə ümumtəhsil məktəblərində məktəblilərin bədii estetik tərbiyəsində, təfəkküründün inkişaf etdirilməsində, musiqi zövqünün düzgün formalaşması və zənginləşməsində uşaq xorunun rolu işıqlandırılmış, uşaq xoru ilə işin əsas xüsusiyyətləri araşdırılmışdır. Həmçinin ümumtəhsil məktəblərində uşaq xorunun təşkilinin əsas prinsipləri, xorla iş zamanı düzgün repertuar seçiminin, xor əsərlərinin öyrənilməsi prosesinin, ifa çətinliklərinin aradan qaldırılmasının, uşaqlara xor-vokal vərdişlərinin aşılanması məqsədilə vokal təmrinlərdən istifadənin, ştrixlər, nüanslar, tembr üzərində işin, o cümlədən uşaqlara pedaqoji və psixoloji təsirin əsas cəhətləri müəyyənləşdirilmiş, təcrübi əhəmiyyətə malik təkliflər irəli sürülmüşdür.

Г.Х.Тагиева

ОСНОВНЫЕ АСПЕКТЫ РАБОТЫ С ДЕТСКИМ ХОРОМ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

Ключевые слова: *ученик, хор, хормейстер, коллектив, эстетическое воспитание, интеллект, тренинг, теория*

В статье рассматривается роль детского хора в художественно-эстетическом воспитании учащихся общеобразовательных школ, в развитии мышления и правильном формировании, обогащении музыкального вкуса. Исследуются основные особенности работы с детским хором, принципы организации детских хоров в общеобразовательных школах, выбор правильного репертуара при работе с хором, процесс разучивания хоровых произведений, преодоление трудностей исполнения, использование

вокальных упражнений для привития хорового и вокального мастерства детям, работа над штрихами, нюансами и тембром, а также основные аспекты педагогических и психологических воздействий, имеющих практическое значение в формировании детского хора.

G.H.Tagiyeva

MAIN ASPECTS OF WORK WITH CHILDREN'S CHOIR IN SECONDARY SCHOOLS

Key words: *pupil, chorus, choirmaster, collective, aesthetic education, intelligence, training, theory*

The article examines the role of the children's choir in the artistic and aesthetic education of students of secondary schools, in the development of thinking and the correct formation and enrichment of musical taste, the main features of working with a children's choir are investigated. The basic principles of organizing children's choirs in secondary schools, choosing the right repertoire when working with a choir, the process of learning choral works, overcoming performance difficulties, using vocal exercises to instill choral and vocal skills in children, working on strokes, nuances and timbre, and also explored the main aspects pedagogical and psychological influences that are of practical importance in the formation of a children's choir.

Xor musiqisi musiqi incəsənətinin ən zəngin növlərindən biridir.Xor musiqisinin tərbiyə etmə imkanları çox genişdir.Xormeyster, Respublikanın Əməkdar müəllimi Məhin Orucova "Uşaq xoru və onunla işin mahiyyəti" adlı metodiki vəsaitində xor incəsənəti haqqında haqlı olaraq qeyd edir ki, "O, hissləri, xəyalları, oxuyan insanların iradələrini birləşdirir. Xor ifası – dünya musiqisinin zirvələrinə, şəxsiyyətin estetik təkmilləşməsinə, mənəviyyat yüksəkliklərinə çatmaq üçün zəngin imkan və etibarlı yoldur" [1, s.2].

Azərbaycanda xor sənətinin professional şəkildə tədrisi və təbliği XX əsrin 20-ci illərinə təsadüf edir. Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəyli 1926-cı ildə Azərbaycan Dövlət Konservatoriyasında ilk çoxsəsli peşəkar xor kollektivini yaratmışdır. 1928-1929-cu tədris ilində isə Konservatoriyanın nəzdində xüsusi xor sinfi açılmışdır.

1936-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan Dövlət Xoru yaranır və Üzeyir Hacıbəyli onun bədii rəhbəri və dirijoru təyin edilir. Demək olar ki, Ü.Hacıbəyli həm də ilk azərbaycanlı xormeysterdir. O, öz xatirələrində yazır: "Xoru əsasən gənc kişi və qadın müğənnilərindən tərtib etmişdim. Onların ixtisas hazırlığı yoxdur, lakin onlar vokal istedadına malikdir"

[2, s.8-9]. Dahi bəstəkar xor sənətini milli mühitdə yaymağa çalışmış və xorun ifasında xalq mahnılarını fəal şəkildə təbliğ etmişdir.

Xorun uşaqların bədii estetik tərbiyəsinə, təfəkkürünün inkişaf etməsinə, musiqi zövqünün formalaşmasına və zənginləşməsinə böyük təsiri vardır. Azərbaycanda ilk uşaq xoru 1920-ci ildə Azərbaycanın ilk peşəkar qadın pianoçusu Xədicə Qayıbovanın (1893-1938) təşəbbüsü ilə yaradılmışdır. (Həmin illərdə X.Qayıbova Azərbaycan SSR Xalq Təhsil Komissarlığında Şərq musiqisi şöbəsinə rəhbərlik etmişdir). 1958-ci ilin sentyabrında görkəmli bəstəkar və dirijor Əfsər Cavanşirovun (1930-2005) rəhbərliyi ilə "Bənövşə" uşaq xoru yaradılmışdır. 1978-ci ildə Azərbaycanın görkəmli dirijoru Zərifə İsmayılova (1941) respublikamızda ilk dəfə "Göyərçin" oğlanlar xorunu təşkil etmişdir. Bu gün respublikamızda Azərbaycan Dövlət Televiziya və Radiosunun Səsyazma Evinin nəzdində Əfsər Cavanşirov adına "Bənövşə" uşaq xoru (bədii rəhbər Zülfiyyə İbrahimova), Azərbaycan Dövlət Uşaq Filarmoniyasının nəzdində Uşaq Xor Kapellası və "Şəms" uşaq xoru (hər iki xorun bədii rəhbəri Dilarə Əliyevadır) uğurla fəaliyyət göstərirlər.

Xor ifaçılığı uşaqların mənəvi-estetik tərbiyəsində mühüm rola malik uşaq musiqi fəaliyyətinin əsas növüdür. Bu fikir dünya mədəniyyətinin görkəmli nümayəndələri və filosofları tərəfindən dəfələrlə söylənilmişdir. Sənətşünaslıq namizədi Nailə Mirzəyeva "Xorşünaslıq" adlı dərsliyində düzgün olaraq qeyd edir ki,"Estetik tərbiyə təkcə incəsənətlə ünsiyyətdə olmaqla kifayətlənə bilməz. Tam estetik tərbiyə həmçinin, uşaqların yaradıcı proseslərdə bilavasitə iştirak etmələri, bədii əsərlərin kollektiv və ya fərdi ifa bacarıqlarına yiyələnmələridir" [3, s.9]. Bu baxımdan da ümumtəhsil məktəblərində uşaq xorlarının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun təşkilinə böyük önəm verilməlidir.

Ümumtəhsil məktəblərində uşaq xorunun təşkil edilməsi çox çətin və məsuliyyətli bir prosesdir. Bu proses xor rəhbərindən geniş əhatəyə malik bilik və bacarıqlar tələb edir. Xorun təşkili zamanı rəhbər uşaq xoru ilə işin özəlliklərini, uşaq səslərinin yaş xüsusiyyətlərini, onların eşitmə duyumunu və səs imkanlarını, repertuar seçiminin prinsiplərini nəzərə almalı, uşaqlara pedaqoji və psixoloji təsirin əsas imkan və yollarını araşdıraraq tətbiq etməyi bacarmalıdır.

Xor rəhbəri xor üzvlərinin seçimi zamanı diqqətli olmalı və tələskənliyə yol verməməlidir. Xor kollektivinə uşaqları seçən zaman onların musiqililiyini təyin etməklə yanaşı, musiqiyə maraq göstərib-göstərməməsini də aydınlaşdırmaq və seçimə ehtiyatla yanaşmaq lazımdır.

Uşaq xoru üçün repertuar seçimi ən vacib və diqqət tələb edən mərhələdir. Düzgün repertuar seçmək üçün xor rəhbəri xorun qarşısında duran vəzifələri nəzərə almalı və seçilən əsər yeni biliklərin öyrənilməsinə xidmət etməlidir. Repertuara daxil olan əsərlər tərbiyəvi xarakter daşımalı, janr, üslub və tematik cəhətdən müxtəlif olmalı, uşaqların yaş və dərketmə səviyyəsinə uyğun olmalı, xor kollektivinin ifa imkanlarına cavab verməlidir. Əks təqdirdə təqdim edilən əsərlər

həm ifa, həm də dinləyiciyə təsir etmə baxımından uğursuz ola bilər. Əsərlərdə yüksək səviyyəli bədiiliyin olması olduqca vacibdir.

İfa çətinliklərinə görə seçilən hər bir əsər xoru həm texniki cəhətdən irəli aparmalı, həm də bu və ya digər biliklərin öyrənilməsinə və möhkəmləndirilməsinə xidmət etməlidir. Proqrama dünya və Azərbaycan klassik və müasir bəstəkarlarının əsərləri, o cümlədən Azərbaycan və dünya xalqlarının xalq mahnılarının xor üçün işləmələri daxil edilməlidir. Xorun repertuarında a capella əsərlərinin çox olması məsləhətdir, çünki belə əsərlər təmiz intonasiyanı və eşitməni inkişaf etdirir.

İri həcmli və mürəkkəb əsərlərin seçiminə diqqətlə yanaşmaq lazımdır. Uşaqlara bu cür əsərlər həllolunmaz məsələ kimi görünə bilər, bu isə işin gedişinə mənfi təsir göstərər, uşaqların xora olan həvəslərini azaldar, hətta, bəzi hallarda uşağın xarakterindən asılı olaraq, onun xoru tərk etməsinə gətirib çıxara bilər. Bu səbəbdən də çətin əsərlər çox böyük ehtiyatla seçilməlidir. Eyni zamanda repertuarda asan əsərlər də çox olmamalıdır. Çünki çətin əsərlərin daxil olduğu proqramlar xorun professional cəhətdən inkişafını stimullaşdırır.

Proqrama daxil olan əsərlər xor rəhbərinin də xoşuna gəlməlidir. Belə halda xor rəhbəri işə daha həvəslə və emosional yanaşır, bu da uşaqları daha yaxşı və maraqla işləməyə sövq edir, əsərin öyrənilməsi prosesini sürətləndirir.

Musiqi əsərini seçən zaman, xormeyster, ən əvvəl həmin əsəri diqqətlə öyrənməli, əsərin ümumi ifa planını tərtib etməli və çətin hissələri təhlil etməlidir.

Əsərin öyrənilməsinə başlamazdan əvvəl, xor rəhbəri əsəri səsləndirməli, mahnının məzmunu və xarakteri, bəstəkarı və ədəbi mətnin müəllifi haqqında qısa məlumat verməlidir. Aparılan söhbətlərin məzmunu çox sadə və yaddaqalan olmalıdır. Xor rəhbərinin apardığı söhbətlər və əsərə fərqli yanaşmalar, bəzən mürəkkəb-psixoloji bir əsərin uşaqlar tərəfindən çox asan qəbul olunmasına və qavranılmasına gətirib çıxara bilər.Uşaqların xor əsərləri ilə tanışlıq formaları müxtəlif ola bilər. Şagirdlərə yüksək kvalifikasiyalı xor kollektivinin ifasında yeni əsərin audio və ya videoyazısının dinlənilməsini təşkil etmək olar. Rəhbər özü əsəri müşayiət edərək əsas melodiyanı oxumaqla da uşaqları yeni əsərlə tanış edə bilər, bu zaman o, ifasının mükəmməlliyinə çalışmalıdır. Bu üsular mahnını öyrənməyə motivasiya yaratmaqla, həmin əsərin uşaqlar tərəfindən daha tez və asan mənimsənilməsinə və ümumilikdə iş prosesinin sürətlənməsinə müsbət təsir göstərər.

Uşaq xoru ilə iş zamanı kollektivin təməlinin yaxşı qoyulması üçün xora solfecioetmənin öyrədilməsi çox vacibdir. Solfecioetmə zamanı dəqiq intonasiyaetmə, düzgün ritmik şəkil və o cümlədən, əsərin musiqili nəzəri əsaslarının nə dərəcədə mənimsənilməsi yoxlanılaraq aydınlaşdırılır. Eyni zamanda, solfecioetmə zamanı yeni öyrənilməyə başlanan əsərin lad-harmonik və metroritmik xüsusiyyətləri, emosional tərəfləri daha aydın başa düşülərək mənimsənilir.

Əsəri əvvəlcədən qeyd olunmuş hissələrlə öyrətmək lazımdır, bu hissələr həm musiqi dili, həm də ədəbi mətn cəhətdən bitmiş fikri ifadə etməlidir. Bir hissədən digər hissənin öyrənilməsinə, əvvəlki hissə tamamilə mənimsədildikdən sonra keçirilməlidir. Lakin çətin hissələrin möhkəmləndirilməsinə bütün əsərlə tam tanış olduqdan sonra qayıtmaq lazımdır. Əsərin öyrənilməsi və ifanın bədii və texniki tərəfləri üzərində iş rəhbərdən böyük təcrübə, bilik və bacarıq tələb edir. Xora əsərin öyrənilməsində ümumi prosesi belə göstərmək olar: 1.Əsərin partiyalarla öyrənilməsi; 2.Texniki çətinliklərin aradan qaldırılması üzərində iş; 3.Əsərin bədii ifasına nail olunması. Ən vacibi isə budur ki, əsərin hissələrlə öyrənilməsi zamanından başlayaraq, hər bir hissə bütün nüanslarla öyrənilməli və əsərin ideya-bədii tərəfləri bir kənara atılmamalıdır. Əsər üzərində işləyərkən hər hansı bir ibarənin öyrənilməsinə vaxt məhdudiyyəti qoymaq düzgün deyildir. Çünki xor rəhbərinin bacarıq və ustalığından, xorun kvalifikasiyasından və əsərin çətinlik dərəcəsindən çox şey asılıdır. Əsərin ibarələrlə öyrənilməsi zamanı təcrübəli rəhbər az da olsa texniki ibarələrə bədiilik gətirmək məqsədilə yollar tapmağı bacarmalıdır.

Qeyd edək ki, yüksək səviyyəli professional ifanın və oxuma vərdişlərinin əldə olunmasına nail olmaq üçün vokal təmrinlərin (çalışmaların) böyük əhəmiyyəti vardır. Bildiyimiz kimi, oxumanın ilk mərhələsinə vokal çalışmaların ifası ilə başlanılır. Vokal çalışmaları iki funksiyaya bölmək olar: 1. Səs aparatının isinməsi və köklənməsi üçün olan çalışmalar. 2. Əsərin ifası zamanı gözəl və keyfiyyətli səslənməsi və xor-vokal vərdişlərinin inkişafı üçün olan çalışmalar. İfa zamanı çalışmalar tədricən çətinləşdirilməlidir. Xor rəhbəri səslənmə, diksiya və nəfəsalmaya aid müxtəlif çalışmalar seçməli, lakin bu çalışmaları hər dərsdə dəyişdirməmələdir. İfaçılar hər bir çalışmanın onlarda hansı vərdişləri inkişaf etdirdiyini bilməlidirlər, bunun sayəsində də hər dərsdə tədricən çalışmaların ifa keyfiyyəti yaxşılaşır. Bəzən öyrənilən əsərlərin bir neçə çətin hissələri çalışmalara əlavə edilə bilər.

Məlum olduğu kimi, kantilen ifa – oxumanın əsasıdır, ifaçıdan geniş, sərbəst, dolğun və axıcı səslənmə tələb edir. Belə səslənməyə nail olmaq üçün çalışmaların ifası zamanı xormeysterin qarşısında duran əsas məsələlərdən biri xorun " legato", "non legato" və "marcato" oxumasına nail olmaqdır. Oxumada rəvanlılıq, keçidlərin sürəti və həmzamanlılıq (sinxronluq) kantilen üçün vacibdir. "Staccato" ştrixi isə ifaçıdan nəfəsalma zamanı əzələlərə texniki cəhətdən daha düzgün və ustalıqla nəzarət etmək, yüksək tessituralı səsləri dəqiq fiksə etmək, yüksək vokal pozisiyalarda təmiz intonasiyalar etmək bacarığı tələb edir.

Vokal çalışmalar dinamik diapazonun inkişafına güclü təsir göstərir. İş zamanı "crescendo" və "diminuendo" nüansları üzərində iş tədricən aparılmalıdır. İfa praktikasında nüansdan nüansa keçid ən çətin amillərdən hesab olunur. Burada da düzgün nəfəsalma vərdişlərinin əhəmiyyəti böyükdür.

Çalışmalar həm də səsin hərəkətliliyini inkişaf etdirir. Hərəkətliliyi əldə

etmək üçün asta templərdən başlayaraq, tədricən iti templərə keçilir. Səsin hərəkətliliyi zamanı səs tellərini yükləmədən falset səslənməyə yaxın səslənmədən istifadə olunmalıdır.

Tembr üzərində işin aparılması da əsas amillərdəndir, bu işin əsas məqsədi keçidlərin rəvanlılığına nail olamaq, bütün diapazon boyu vahid səslənməni təmin etməkdir. Bunun üçün pillələrin yuxarı və aşağı istiqamətdə ardıcıl oxunması kimi çalışmlardan istifadə edilir, sonra isə sıçrayışlı təmrinlər oxudulur və sıçrayışlar tədricən genişləndirilir.

Qeyd edək ki, çalışmaların ifası nəticəsində formalaşan biliklər getdikcə reflektor xarakter daşımağa başlayır. Çalışmalar vasitəsilə bütöv bir kompleks biliklərin aşılanması mümkündür. Lakin bir-neçə dərsə bu biliklərin hamısına nail olmağa çalışmaq və ifaçıların qarşısına gücləri çatmayan tapşırıqlar qoymaq lazım deyil, əks təqdirdə bütün cəhdlər puça çıxa bilər. Hər bir işə səbrlə yanaşmaq, qarşıya qoyulan məqsədlərə tədricən nail olmaq lazımdır.

Uşaq xor kollektivi ilə iş zamanı psixoloji treninqlərin aparılması ən orijinal metodlardan biri hesab olunur. Çünki bu testlər zamanı hər bir uşağın fərdi olaraq daxili göstəriciləri aydın olur. Rəhbər üçün hər bir uşağın emosional vəziyyətini və ətraf mühitə münasibətini bilmək vacibdir. Psixoloqların fikrinə görə, bu cür treninqlərin keçirilməsi uşaqlarla iş prosesində ən prioritet yanaşmadır. Hər bir uşağın fərdi olaraq temperamentini və xarakterini bilmək, həmin uşağa yanaşmaq üçün yol tapmağı daha da asanlaşdırır və həmin etapda hansı əsərin daha qəbulolunan və xeyirli omasını, aparılan işin səmərəliliyini təyin etməyə imkan yaradır.Rəhbərlə uşaq arasında yaxınlığın və ümumi anlaşmanın olması kollektivdə daha yaxşı iş atmosferinin yaranmasına və nəticədə səmərəli iş nailiyyətlərinin əldə edilməsinə gətirib çıxarır.

Psixoloqların apardıqları təcrübələr əsasında gəldikləri nəticələrə görə uşaqlarla 5 həndəsi fiqura əsaslanan test keçirmək olar. Bu məqsədlə üzərində 5 fiqur olan zəncir xorun hər bir üzvünə təqdim edilir və onlardan müəyyən vaxtlardabu fiqurları istədikəri sıra ilə düzmələri xahiş olunur.Təqdim olunan 5 fiqur düzbucaqlı, kvadrat, üçbucaq, dairə və ziqzaqdır. Zəncirdə sırada ilk duran fiqur dominantlıq təşkil edir və həmin müddət ərzində şagirdin psixoloji durumundan xəbər verir [4, s.1].

Əgər fiqurlar asılan zəncirdə sırada birinci üçbucaq fiqurudursa, belə uşaqlar liderlik etməyi sevirlər, özlərinə əmindirlər, səhvlərini etiraf etməyi xoşlamırlar, kəskin xarakterlidirlər. Bu fiqurun sırada ilk olaraq durması uşaqlar arasında çoxluq təşkil edirsə, belə hallarda xorun repertuarında xalq mahnılarının istənilən işləməsi üzərində iş aparmaq daha səmərəli olacaqdır.

Uşaqların daha çox faizində zəncirdə ziqzaq fiquru dominantlıq edirsə,belə uşaqlar yaradıcı uşaqlardır, impulsivdirlər. Bu halda klassiklərin ciddi formalı və harmonik dili zəngin olan əsərlərinin üzərində işləmək lazımdır, impulsiv uşaqlarda yayınmalar olmadığına görə, xormeyster dəqiq və səlis ifaya nail ola

bilər.

Zəncirdə birinci yerdə dairə dururs, onda müasir musiqiyə müraciət etmək lazımdır. Dairə simvolu harmoniya simvoludur və eyni zamanda mülayim, həssas, qayğıkeş uşaqların simvoludur.

Sırada ilk dayanan fiqur düz bucaqlıdırsa, bu fiqur çox da yaxşı hesab olunmur. Düzbucaqlı fiqur uşağın neqativ tərəflərini, məsələn, etibarsızlığını əks etdirir. Belə uşaqlar çətin uşaqlardır, ola bilsin ailələrində, özlərinin daxili aləmində problemləri olduğu üçün ruh düşkünlüyünə uğrayıblar. Lakin düzbucaqlı fiquru müvəqqəti fiqurdur, uşaqların əhvalından asılı olaraq çox az müddət ərzində sırada birincilik təşkil edir. Belə hallarda coşqun xalq mahnılarının işləmələrinə müraciət etmək lazımdır.Onu da qeyd etmək lazımdır ki, düzbucaqlı fiqurunun birinci yerdə durması çox nadir hallarda baş verir.

Kvadrat – çox sabit fiqurdur. Bu fiqur zəncirdə ilk yerdədirsə, belə uşaqlar çox zəhmətkeşdirlər, liderliyəcan atırlar, emosionaldırlar. Əsas materialı təxəyyüllərindən götürürlər, lakin ən zəif cəhətləri detallara çox əhəmiyyət vermələridir. Belə hallarda bir çox janrlara - həm polifonik əsərlərə, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərinə, həm də xalq mahnılarının işləmələrinə müraciət etmək olar.

Həyata keçirilən bu cür treninqlər uşaq xor kollektivi ilə məşq prosesinin səmərəliliyini təmin etmək məqsədi daşıyır.

Nəzərə almaq lazımdır ki, uşaq xorunun yaradıcılıq kulminasiyası xor kollektivinin konsert çıxışlarıdır. Uşaqların konsertlərdə ifa fəaliyyəti onların xor həyatının və tədris prosesinin ayrılmaz hissəsidir. İldə bir neçə dəfə müəyyən tədbirlərdə və müsabiqələrdə xor kollektivinin kütlə qarşısında çıxışları və əldə etdikləri uğurlar uşaqları daha da həvəsləndirir və müəyyən səhnə təcrübəsinin yaranmasına kömək edir. Lakin konsertlərdə çıxışların həddən artıq olması uşaqların səhnəyə həvəsini və məsuliyyətini azalda bilər. Buna görə səhnə çıxışları ildə 2-3 dəfədən çox olmamalıdır.

Əldə etdiyi bütün nailiyyətlərdən asılı olmayaraq, hər bir xor rəhbərinin qarşısında duran ən əsas və vacib şərt cəmiyyət üçün xeyirli insan və şəxsiyyət yetişdirməkdir. Sənətşünaslıq doktoru, professor S.Qurbanəliyevanın "Şəxsiyyət və musiqi" kitabında qeyd etdiyi fikirlər bunu bir daha təsdiq edir: "Hər işdə kamil olmaq! Bu, fitri deyil, ictimai həyatda, məqsədyönlü təlim-tərbiyə prosesində qazanılan bir keyfiyyətdir. Həmin keyfiyyətin formalaşması əsas etibarı ilə əqli tərbiyə prosesində, yəni bilik, bacarıq və vərdişlərin aşılanması prosesində gedir. Ancaq musiqi də həmin formalaşmaya qüvvətli təsir göstərir. Çünki bədii-obrazlı təfəkkür olmaq etibarilə musiqi də, elmi təfəkkür kimi, ictimai hadisələrin, ətraf aləmin, gerçəkliyin mahiyyətini ifadə edir. O, müxtəlif hadisələrin, ruhi yaşamaların ən incə çalarlarını, səciyyəvi xüsusiyyətlərini görməkdə və anlamaqda adama kömək göstərir" [5, s.89].

Musiqi müəllimi bilməlidir ki, məktəbdə xor kollektivi ilə iş zamanı onun

hər bir üzvünün yalnız musiqi sahəsində deyil, digər sahələrdə də inkişaf edib uğur qazanmasına, tədris edilən bütün fənlərə maraq göstərməsinə çalışmaq lazımdır. Bunun üçün xor rəhbərlərinin şagirdlərin bilik, bacarıq və qabiliyyətlərinin aşkarlanaraq inkişaf etdirilməsi işində dünya təcrübəsində genş yayılmış, Amerika psixoloqu, kliniki psixologiya və neyropsixologiya üzrə mütəxəssis, Harvard universitetinin professoru Hovard Qardnerin "Zəka nəzəriyyəsi" və ya "Çoxintellektlilik nəzəriyyəsi"nə müraciət edərək iş prosesində tətbiq etmələrinin böyük əhəmiyyəti ola bilər. Qeyd edək ki, artıq bir neçə ildir Azərbaycanda ümumtəhsil məktəblərində bu nəzəriyyənin öyrənilməsinə və tətbiqinə başlanılmışdır. H.Qardnerin nəzəriyyəsi kurikulum təhsil proqramının planlaşdırılmasında, fənn kursu üçün fəaliyyətlərin və uyğun qiymətləndirmə strategiyasının seçimində də müsbət nəticə verə bilər. Bu nəzəriyyə müəllifin 1983-cü ildə "Ağıl çərçivəsində" kitabında təklif edilmişdir. Onun uzun müddət məktəblərdə zəif oxuyan uşaqlar arasında apardığı təcrübələrə əsaslanaraq irəli sürdüyü nəzəriyyəsinə görə, hər bir şagird 8 növ qabiliyyətin təkrarolunmaz kombinasiyasına malikdir. Müəllim tədris etdiyi fəndən və sahədən asılı olmayaraq, şagirdlərdə bu qabiliyyətlərin aşkar edilərək inkişaf etdirilməsinin yollarını axtarıb tapmalıdır. H.Qardnerin fikrincə hər bir şagird ruhlandırıldıqda, dəstək və düzgün təlimatlar aldıqda onun hətta 8 qabiliyyəti də inkişaf etdirilə bilər. Müasir dünya psixologiya və pedaqogikasında geniş tətbiq edilən bu nəzəriyyə beynin imkanlarını öyrənməklə bu imkanların tədris prosesində üzə çıxarılmasına yönəlmişdir. H.Qardnerin aşkarladığı 8 intellekt növləri bunlardır: 1."Verbal-linqvistik" intellekt; 2."Riyazi-məntiqi" intellekt; 3."Vizual-məkan" intellekti; 4."Bədən-kinestetik" intellekt; 5."Fərdlərarası" və ya "Şəxslərarası" intellekt; 6. "Fərddaxili" və ya "Şəxsiyyətdaxili" intellekt; 7."Musiqi-ritmik" və ya "Audial-ritmli" intellekt; 8."Naturalist" intellekt [6, s.51]. Nəzəriyəyə görə müəllimin qarşısında duran ən əsas şərt şagirdin bu qabiliyyətlərdən hansına daha çox sahib olduğunu aşkar etmək və həmin qabiliyətin daha da inkişaf etdirilərək imkanlarındandaha geniş istifadə edilməsinə nail olmaqdır. Müəllimin belə bir nəticəni əldə etməsi şagirdlərə tədris olunan və eyni zamanda zəif oxuduqları bütün fənlərin daha asan öyrənilməsini, əldə etdiyi biliklərin daha yaxşı mənimsənilməsini və yaddaşlarda daha uzunmüddətli qalmasını təmin edər. Pedaqoqlarda əsasən belə bir fikir formalaşdırılmışdır ki, hər bir şagirdin istedadlı, bacarıqlı olduğu hər hansı sahə vardır, müəllimin qarşısında duran tələb isə bu bacarığı üzə çıxarıb inkişaf etdirməyə səy göstərməkdir. H.Qardnerin nəzəriyyəsinin səciyyəvi tərəfi isə uşaqda aşkar edilən həmin bacarığın imkanlarının yalnız aid olduğu sahənin deyil, digər sahələrin də inkişafına yönəldilməsidir. Nəzərdə tutulan prosesin həyata keçirilməsi müəllimin yüksək təcrübəsi və pedaqoqluq bacarığı nəticəsində mümkündür.

Hovard Qardnerin "Çoxintellektlilik nəzəriyyəsi"nin ümumtəhsil məktəblərinin uşaq xor kollektivinin rəhbərləri tərəfindən iş prosesində tətbiqi

müsbət nəticələr əldə etməyə köməklik göstərə bilər. Bunun üçün xor rəhbərləri güclü müşahidəetmə qabiliyyətinə malik olmalı, hər bir şagirdə diqqət və qayğı ilə yanaşmalı, şagirdlərlə söhbətlər aparmalı, onların hər birində hansı dərketmə üsulunun daha faydalı olacağını meydana çıxarmağa çalışmalıdırlar. Xor rəhbəri şagirdlərin yalnız musiqi sahəsində deyil, başqa sahələrdə də bilik və bacarıqlarının aşkarlanaraq inkişaf etdirilməsi üçün digər fənn müəllimləri və valideynlərlə söhbətlər aparmalı, bu prosesdə fəal vasitəçi olmalıdır.

Beləliklə, uşaq xorunun rəhbəri tərəfindən şəxsiyyətyönümlü təhsil prinsipinə uyğun olaraq, təlim-tərbiyə prosesində şagirdlərin qabiliyyət və potensiallarının nəzərə alınması məktəblilərin vətənpərvər və fədakar vətəndaş kimi yetişməsinə xidmət edir. Musiqi müəllimləri hər bir şagirdə yuxarıda qeyd olunan təkliflərə uyğun olaraq yanaşsalar, yüksək insani keyfiyyətlərə malik gənclər yetişdirə bilərlər. Ümumtəhsil məktəblərində tədris etdikləri fənlərdən və icra etdikləri vəzifədən asılı olmayaraq, hər bir pedaqoqun bu çətin prosesə diqqətlə və vicdanla yanaşması şagirdlərin şəxsiyyət kimi formalaşmasına böyük töhfə ola bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. Orucova M. “Uşaq xoru və onunla işin mahiyyəti”. Metodiki vəsait. Bakı, 2016.-52 səh.
2. Axundova G. “Azərbaycanın görkəmli dirijorları və xormeysterləri” Dərs vəsaiti. Bakı, ADPU, 2016.-186 səh.
3. Mirzəyeva N. “Xorşünaslıq”. Dərslik. Bakı, 2007.-125 səh.
4. “Значение психологических тренингов в детском хоре”. Статья на сайте discoverarts.ru. Категория “Культура и искусство”.
5. Qurbanəliyeva S. “Şəxsiyyət və musiqi”. Bakı, Adiloğlu, 2010.-160 səh.
6. Гарднер Г. “Структура разума: теория множественного интеллекта”. Москва, Вильямс, 2007.-512с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 19.07.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 21.07.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.